# Separatçılara "Şuşa aksiyası" dərsi

**Şuşa–Xankəndi yolunda aksiya keçirənlər doqquz gündür erməni ekoterroruna qarşı etiraz edirlər. Etirazçılar arasında vətəndaş mövqeyini bildirmək istəyənlər də vardı. Onlardan biri ilə – Aslan Əsədovla söhbətləşirəm.**

—Şuşada Xəzinə qayasının əzəmətindən doymaq olmur. Qaranlıqda da möhtəşəm görünür. Səhər tezdən sıldırımlara, aşırımlara baxıram, adamı vahimə bürüyür. Hərbçilərimiz şəhərə daxil olmaq üçün buranı aşıblar, həmsöhbətim igidlərimizin qəhrəmanlığından heyrətləndiyini, həm də qürur duyduğunu deyir.

—İndi biz burada, Şuşa–Xankəndi yolunda dayanıb ermənilərin ekoloji terroruna etiraz edirik, – deyə Aslan yolu hər iki tərəfdən bağlayan rus sülhməramlılarına işarə edir. Amma bunlar (Rusiya sülhməramlıları-red.) gərək bizim ekoloqlara imkan yaradaydılar ki, yataqların yerləşdiyi ərazilərə gedib baş çəksinlər. Axı təbiətə vurulan zərər hamımızı maraqlandırmalıdır.

**—Nə qədər müddətdir buradasınız?**

– İki gündür. Əslində, çoxdan gəlmək istəyirdim, elə aksiya başlayan gün. Eşidəndə ki, ərazilərimizdə ermənilər təbiətə ziyan vururlar, çox təsirləndim. Biz onlara inkişaf, yaxşı həyat təklif edirik. Qanunsuz əməllərdən çəkinməyə çağırırıq, onlar isə bizim bu yaxşılıqlarımızın əvəzində qızıl hərisliyindən əl çəkmirlər...

– Naibə xanım, gəlin burada dayanın, soyuqdu. Bir az isinək. – Tonqal başındakılar bir qədər aralıda dayanan xanımı yanlarına çağırırlar. Rusiya sülhməramlılarının postuna yaxın dayanmış Naibə xanım yaxına gəlir.



**Naibə Behbudova "Qürur" Şəhid Ailələri Xeyriyyə İctimai Birliyinin sədridir**. Mən də bir az isinmək üçün tonqala yaxınlaşıram. Aksiya iştirakçıları haradan gəldiyimlə maraqlanırlar. "Xalq qəzeti"ndən deyirəm. "Müəllim, yəqin, Vartanyandı, nədi, onun fırıldaqlarından çox yazırsınız," — aksiyaçılardan biri mənə sual ünvanlayır.

— Vartanyan yox, Vardanyan! Araqarışdıranın adını düz de". Aksiyaçılardan biri alovun tüstüsündən yaşaran gözünü silə-silə ərklə mənimlə danışan yoldaşı ilə zarafat edir.

Gənc etirazçının sualına başımı tərpədərək cavab verirəm.

Bu zaman Naibə xanım sakitcə danışmağa başlayır: – Bizim işimiz həmişə haqq olub. Qonşularımızla hər zaman ədalətli davranmışıq, dara düşəndə köməyə tələsmişik, sevincinə şərik olmuşuq. Amma ermənilər bütün bu yaxşılıqların əvəzində bizə ancaq ziyan vurublar, faciə gətiriblər...1992-ci ildə, SSRİ dağılanda ermənilər fürsətdən yararlanaraq torpaqlarımızı işğal etdilər. Birinci Qarabağ müharibəsinin acısını bütün xalq çəkdi. Yaşanılan acılardan bizim da payımıza düşdü.

O, həmin savaşda qardaşı, Azərbaycanın Milli Qəhrəmanı, Qarabağ




müharibəsi şəhidi Səfiyar Behbudovun igidliyindən söz açır: 24 yaşlı Səfiyar Xocalı soyqırımından bir həftə sonra Bərdə özünümüdafiə batalyonuna daxil olaraq, Qarabağa savaşa yollanmışdı. O, ermənilərə dağ çəkmişdi. Düşmən onun olduğu PDM-ni vuraraq, Səfiyarı ağır vəziyyətdə əsir götürmüşdülər. Səfiyarın mərdliyindən dəhşətə gələn ermənilər onun ayaqlarına məftil bağlayaraq üzərinə neft töküb yandırmaqla nə qədər qəddar, aciz olduqlarını təsdiqləmişdilər. Gənc zabitin yanmış cəsədi çətinliklə də olsa, erməni cəlladlarından alınaraq dünyaya göz açdığı Bərdə rayonunun Mollalı kəndində torpağa tapşırılıb.

Naibə xanım sözünə davam edir:

– Allaha şükür, Qarabağımız azad olundu, şəhidlərimizin qisası alındı. Bundan sonra müharibələr olmamalıdır. Biz həmişə sülh istəmişik. İndi də sülh istəyirik, düşmənçik səhifəsini bağlamağı, normal qonşuluq əlaqələrinin qurulmasını arzulayırıq. Elə buna görə də buraya toplaşmışıq. İstəyimiz odur ki, rus sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərimizdə ermənilər qanunsuz hərəkətlərə yol verməsinlər.

**—Naibə xanım, yəqin, ermənilərin aksiya barədə dediklərindən xəbəriniz var.**

—Oxumuşam, haqlı etirazımıza müxtəlif don geyindirməyə çalışırlar. Guya, yolu bağlamışıq, Xankəndi də mühasirəyə düşüb. Axı yolu biz bağlamamışıq. Dünən də, bu gün də yoldan avtomobillər keçir. Humanitar məqsədlərlə yoldan istifadə edilir, ancaq ermənilər yenə də yalan yaymaqla məşğuldurlar. Aksiya iştirakçıları bəyan edirlər ki, bütün mülki ermənilər, o cümlədən qocalar, qadınlar və uşaqlar keçib gedə bilərlər. Halbuki 30 illik işğal müddətində ermənilər ərazilərimizdə minlərlə mina basdırmaları, abidələrimizi yerlə-yeksan etmələri bir yana, təbiətimizə də dəhşətli ziyan vurublar. İndi də Xankəndiyə sığınmış bir qrup separatçı Azərbaycana məxsus faydalı qazıntı yataqlarını tar-mar edir. Haqlı tələblərimiz yerinə yetirilməlidir.

Aksiyaya toplaşanların hamısı buna əmindirlər. Onlar soyuğa, şaxtalı havaya baxmayaraq, qanuni tələblərini irəli sürürlər.

Gözüm etirazçılardan birinin əlində tutduğu şüara sataşır. Rus dilində yazılmışdı: Остановить грабеж, провести мониторинг! (Qarəti dayandırmaq, monitorinq aparmaq!). Bu dəfə rus sülhməramlılarının şüarı yaxşı oxuduqlarına əmin oldum.

**Səbuhi MƏMMƏDOV,**
**"Xalq qəzeti"**

**Bakı-Şuşa-Bakı**

Xalq qəzeti .- 2022.- 21 dekabr.- S.6.